*Sahib Əsədov*

# “Quranı Muhəmməd ﷺ yazıb” deyənlərə cavab!...

(باللغة الآذرية)

الرد على القائلين بأن القرآن كتبه محمد صلى الله عليه وسلم

*Mədinə, 2019.*

# الرد على القائلين بأن القرآن كتبه محمد صلى الله عليه وسلم

(باللغة الآذرية)

# "Quranı Muhəmməd صلى الله عليه وسلم yazıb" deyənlərə cavab!...

**Yazdı: Sahib Əsədov**

**Mədinə. 2019.**

بسم الله الرحمن الرحيم

الحمد لله رب العالمين، والصلاه والسلام على رسول الأمين.

## GİRİŞ

Bəzi insanlar deyirlər: “Quran Məhəmmədin ﷺ öz yazısı və öz əməlinin bəhrəsidir.” Bu şübhəni bəzi ateistlər və s. ölkəmizdə də yaymağa çalışırlar.

*Bu şübhəyə aşağıdakı nahiyələrdən cavab verəcəyik:*

**A)** Peyğəmbərin ﷺ yazıb-oxumağı bilməməsi.
**B)** Peyğəmbərin ﷺ Quranda Allah tərəfindən qınanması.
**C)** Bəzi hadisələrlə əlaqədar ayələrin Quranın Allah kəlamı olmasına dəlalət etməsi.
**D)** Quranın möcüzəvi xüsusiyyətləri.
**E)** Quranın qeyb aləmindən xəbər verməsi.
**F)** Qədim dini kitablarda (Bibliya, Tövrat və s) olan bəzi məlumatlar Quranda niyə təsdiqlənir? - şübhəyə cavab.

*Bu məsələlərdən danışmazdan əvvəl isə:*

Quranın Allah tərəfindən nazil olmasını deməyə bəzilərinin bizdən dəlil tələb etdikləri kimi, Quranın Allah tərəfindən nazil olduğunu inkar etmək üçün də qarşı tərəfdən dəlil tələb etmək lazımdır. Təbii ki, bu yazıda Quranın Allah tərəfindən nazil olmasının bəzi dəlillərinə işarə ediləcəkdir. Belə olduğu halda biz iki seçim

arasında qalırıq: *Birincisi* Quranın Allahın kəlamı olması... *İkincisi* isə bəzi din düşmənlərinin iddia etdiyi kimi Quranın Məhəmməd ﷺ peyğəmbərin yazısı olması...

*Əgər biz ikinci iddianın doğru olduğunu fərz etsək, onda bəzi suallar yaranır:*

Nə üçün peyğəmbərlik iddiası edən bir insan tarixdə ən böyük dörd ilahi kitabdan biri hesab olunan və ağılları valeh edən əsrarəngiz bir kitab yazsın, sonra da bunu başqasına nisbət etsin?

O cümlədən də niyə onun mislində bir kitab yazmaq barədə bəşər övladına meydan oxuyurdu?

Necə olurdu ki, o, əvvəlki ümmətlərin xəbərlərini dəqiqliklə bilir, bundan xəbər verirdi?

Necə olurdu ki, o, əvvəlkilərin bildiyi elmləri də xəbər verirdi?

Necə olurdu ki, onun iddia olunan kitabının səhifələri qeybdən verilən xəbərlərlə dolu idi? O qeybi xəbərlər ki, bunlardan bəzilərin doğruluğu onun sağlığında öz təsdiqini tapırdı, bəzilərinin doğruluğu isə onun vəfatından sonra təsdiqini tapdı, bəziləri isə zaman keçdikcə yenə təsdiqlənir və Qiyamətə kimi də təsdiqlənəcəkdir.

Sonra isə hansısa bir iddiada olan bir şəxs bir kitab yazsa, görəsən, biz o kitabda nəyin şahidi olarıq? Əgər bizdən biri öz xəyalının məhsulu olan bir yazı yazıb nə isə yalan bir iddia etsə, bir müddət sonra da olsa, onun bəşər övladına aid olduğu aşkara çıxacaqdır. Bu çətin bir şey deyildir. Çünki bəşər övladı öz hissinə, istəyinə, elminə və mövzulara uyğun olaraq bəşəri meyarlara və bacarıqlara əsasən yazılarını yazır.

Amma Qurani-Kərimin istənilən ayəsinə düzgün şəkildə baxsanız, bu, sizə Quranın ilahidən gəlmə olması barədə xəbər verəcəkdir. Görəcəksiniz ki, onun mövzuları bəşər övladının diqqət mərkəzində olan, insanın beynində dövr edən mövzular olmaqdan daha ucadır. Quranın söhbət etdiyi mövzular adətən bəşər övladının toxunmadığı və haqqında yazmağı bacarmadığı mövzulardır. Məsələn; Allahın isimləri, sifətləri və feilləri, axirət günü, axirətin çətinliyi, cənnət, cəhənnəm, keçmişin uzaq tarixi və gələcəyin uzaq tarixi və s. kimi mövzular.

Bunun müqabilində isə Quranın hansısa bir insani hissiyyatlardan doğan ayələr daşımadığının şahidi oluruq. Bu ayələrdə Məkkə dönəmindəki zəifliyi ifadə edən hüzn və ya Mədinə dönəmindəki qələbə nəşəsini ifadə edən insani bir hiss görmürük. O cümlədən, Quran Məhəmməd ﷺ peyğəmbərin hüzn ilində iki ən yaxın qohumunu itirməsindən (əmisi Əbu Talibin və həyat yoldaşı Xədicənin vəfatı) də söhbət açmır. Nə də Quran onun evliliyi, övladlarının, yoldaşlarının, dostlarının

doğum və vəfat tarixləri və başqa şəxsi məsələlərlə bağlı təfsilatlara, ətraflı izahlara və ya xırdaçılığa getmir. Nə düşmənlərindən birinin, nə də dostlarından birinin adı qeyd olunmur[1].

Əgər daha çox bəyan istəsəniz, biz yəhudi və xristianların inandıqları kitablara baxa bilər və bu kitabların bəşər tərəfindən yazılmasına dəlalət edən məsələlərlə dolu olduğunun şahidi olarıq. Hansı ki insanın ağrı-acılarından, kədərlərindən, ümid və istəklərindən danışır. Bu mövzu olduqca geniş bir mövzudur.

Bunun müqabilində isə Quranda onlarla misallara baxaraq görərik ki, Quran Məhəmmədin ﷺ yazısı və inşası deyil, əksinə, o Uca Allahın ona nazil etdiyi bir kitabdır.

Odur ki biz batil iddia sahiblərinə deyirik ki, siz Quranın Muhəmməd ﷺ peyğəmbərin sözü olması barədə bir tutarlı dəlil belə gətirə bilməzsiniz. Əksinə, bir çox dəlillər Quranın bəşər kəlamı deyil, ilahi bir kəlam olduğunu göstərir.

---

[1] (Red- Quranda yalnız Zeyd və Əbu Ləhəbin adı qeyd olunub).

## Birincisi: Peyğəmbərin ﷺ yazıb-oxumağı bilməməsi.

İslam əqidəsinin götürüldüyü mötəbər qaynaqlara əsasən İslam peyğəmbəri Muhamməde ﷺ peyğəmbərlik verildiyi zaman o oxumaq və yazmağı bilmirdi. Onun oxuma və yazma bilmədən Quran kimi bir kitabı bəşəriyyətə xəbər verməsi yalnız insanları aciz qoyacaq möcüzə ola bilərdi. Həmçinin onun oxuyub yaza bilməsi bəzi insanlarda onun bu əzəmətli kitabı öz düşüncəsi ilə yazması, planlaması kimi yozula bilərdi. O səbəbdən də uca Allah oxuyub yazmaq bilməyən bir insana əzəmətli bir kitab nazil edir. Bu kitabı vəhy katibləri yazır, qeyd edirdilər. Bu vəhy vasitəsilə nazil olan ayətlərin yazılmasını, qeydə alınmasını da peyğəmbərin ﷺ vəhy katibləri edirdilər. Bəzi dindar insanlar peyğəmbərin oxumağı və yazmağı bilməməsini qəbullana bilmir, mötəbər dəlillər qarşısında isə susmalı olurlar. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Sən bundan əvvəl nə bir kitab oxuya bilir, nə də onu sağ əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər". (Ənkəbut. 48).

Bir başqa ayədə uca Allah buyurur: "O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər". (Əraf. 157). Bu ayənin təfsirində Qurtubi demişdir: Allahın "ümmi" sözü haqqında İbn Abbas (Allah ona rəhmət etsin) demişdir:

"Peyğəmbəriniz ﷺ "ümmi" idi, o nə yaza, nə də oxuya bilirdi"[2].

İbn Kəsir (Allah ona rəhmət etsin) Ənkəbut surəsi 48-ci ayənin təfsirində demişdir: "Sonra uca Allah deyir: "Sən bundan əvvəl nə bir kitab oxuya bilir, nə də onu sağ əlinlə yaza bilirdin". Yəni ey Muhəmməd, sənə bu Quran kitabı gəlməzdən öncə sən bundan öncə öz qövmün içində bir ömür yaşadın, nə kitab oxuya bilirdin, nə də yazmağı bacarmırdın. Sənin qövmündən və qeyrilərindən hər kəs bilir ki, sən oxuyub yazmağı bilməyən "ümmi" olmusan. Keçmiş (müqəddəs) kitablarda da o bu cür (yazıb oxumağı bacarmayan şəxs olaraq) vəsf olummuşdur"[3].

Təfsirçi Vahidi demişdir: "Ümmi peyğəmbərin, ardınca gedərlər". (Əraf. 157). O peyğəmbər ki, yazıb oxumağı bilmirdi. Onun (Allaha olan) bu yaxınlığı Qurani-Kərimdəki möcüzəsini bir daha təsdiqləyir"[4].

Hədisdə də peyğəmbərin ﷺ yazıb oxumağı bilməməsi təsdiqlənir. Buxari və Müslimin ibn Ömərdən rəvayət etdikləri hədisdə peyğəmbər ﷺ buyurur: "Biz ümmi bir toplumuq, yazı və hesabı bilmirik. (hicri təqvimlə) Ay belə və belə olur. Yəni bəzən (ay) iyirmi doqquz (gün), bəzən də otuz (gün) olur"[5].

---

[2] Qurtubinin təfsiri. Əraf 157-ci ayənin izahı.
[3] Təfsirul-Quranil-Azim. İbn Kəsir. Ənkəbut. 48.
[4] əl-Vaciz fi Təfsiri Kitəbil-Aziz. Əli ibn Əhməd Vahidi. 1/416.
[5] Səhih əl-Buxari. 1814; Səhihi Muslim. 1080.

Hədisdə peyğəmbərin ﷺ oxuyub yazmaq bilməməsi elmə qarşı olmaq deyil, əksinə o özü gecə-gündüz faydalı elmi yayır, elmə rəğbətləndirirdi. Onun üçün yazı işlərini səhabələri görürdülər, bu işi onlara həvalə etmişdi.

Şeyxulislam İbn Teymiyyə bu hədisdəki "biz ümmi bir toplumuq" sözü haqqında deyib ki: "bu, tələb olaraq deyilməyib, onlar şəriətin gəlməsindən öncə ümmi (oxumaq və yazmağı bilməyən) toplum idilər". Sonra isə deyir ki: "Əgər onlar şəriətin gəlməsindən öncə ümmi toplum olublarsa, başlanğıc olaraq belə halda olmaq onlara əmr olunmayıb. Bəli, ola bilsin ki ümmi toplum olmağın bəzi əhkamları onlara əmr edilmişdi. Biz bəyan edəcəyik ki, onlar mütləq şəkildə öz olduqları hal üzərində qalmaqla əmr olunmamışdılar"[6]. İslamdan sonra bir çox ərəblər oxumağı və yazmağı öyrəndilər.

Bizim mövzumuz peyğəmbərin ﷺ oxuyub yazan olmaması haqqındadır. Peyğəmbərin ﷺ qövmü haqqında bu cür ifadə verməsinin[7] mənalarından biri də odur ki, ərəblər oxuyub yazmaqdan çox əzbərləməyə üstünlük verirdilər. Əzbərləmək onlar arasında geniş yayılmışdı. Onlar məlumatları əzbərləməyi xoşlayardılar.

---

[6] Məcmu'ul-Fətə'va. 25/166.
[7] Yəni: "Biz ümmi bir toplumuq" ifadəsini işlətməsi.

Həmçinin Cəbrayıl peyğəmbərə ﷺ ilk dəfə vəhy gətirəndə də ona hər dəfə "oxu" dedikdə, o, "mən oxuya bilmirəm"[8] deyirdi. Alimlər Cəbrayılın məqsədinin onun dediklərini sadəcə diliylə təkrarlaması istəyi olduğunu bildirmişlər.

Bu hədisin mənası odur ki, peyğəmbərin ﷺ ümməti ibadətlərin vaxtını bilmək üçün yazıya və hesaba ehtiyac duymur, necə ki bu başqa ümmətlərin də halı olmuşdur.

İbnul-Muləqqin demişdir: "Yəni orucumuzun və ibadətimizin vaxtını bilmək üçün hesabı və yazını bilməyə ehtiyac yoxdur. İbadətimiz aydın nişanələr və aşkar məsələlərlə bağlıdır ki, bu da bu hesabı bilməklə eynidir"[9].

Peyğəmbər ﷺ və səhabələri namazların vaxtını bilmək üçün kölgənin hərəkətindən, əşyaların kölgəsinin uzunluğundan, oruc vaxtlarını bilməkdən ötrü də səmanı (günəşin çıxma və batmasını izləməklə yanaşı) xüsusi qaydalarla müşahidə etməklə bilirdilər və onların xüsusi yazı və hesablamalara ehtiyacları qalmırdı.

Elə bu məqamda ibn Teymiyyənin sözü yerinə düşür: "Kitab əhlində (xristian və yəhudilər) olduğu kimi, yəni

---

[8] Səhih əl-Buxari. 6581; Səhihi Müslim. 422. "Vəhyin başlanması" babı.

[9] "İslamweb.net saytı" mənbəsini tapmadım. إنا أمة مية ليس دعوة للجهل məqaləsindən ərəbcə orjinalını əldə etmək olar.

onların öz oruc və iftar vaxtlarını yazmalarına ehtiyac olduğu kimi, bizim dinimizdə belə bir yazıya və hesaba ehtiyac yoxdur. Onların dini yazıyla bağlıdır, əgər yazı olmasa öz dinlərini tanımayacaqlar"[10].

"Hüdeybiyyə" sülhündə o zaman ki müşriklər müqavilə üzərində "Muhəmməd Allahın Elçisidir" sözünün yazılmasına etiraz etdilər, peyğəmbər əmr etdi ki o yazını silsinlər. Əli ibn Əbu Talib (Allah ondan razı olsun) yazını silmək istəmədi və dedi: "Sənin adını heç zaman silmərəm". Peyğəmbər ona dedi, "o yazının yerini mənə göstər". Əli ona həmin sözün yerini göstərdikdə Allahın Elçisi ﷺ öz şərəfli əli ilə o yazını sildi"[11].

Əgər peyğəmbər ﷺ oxuya bilsəydi, nə üçün Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) o yazının yerini soruşurdu ki?

Bura kimi aydın oldu ki, peyğəmbər hicrətin 7-ci ilinə kimi yazıb oxumağı bilmirdi, bu təqribən onun ölümündən dörd il öncə olan zaman kəsimi deməkdir. Peyğəmbərin sonradan (və ya ölümündən öncə) oxuyub yazmağı öyrənməsi haqqında isə alimlər ixtilaf ediblər. Doğru olan odur ki, peyğəmbər bu halda ikən, yəni yazıb oxumağı bilmədiyi halda vəfat etmişdir. Çünki o vəfat edənə kimi vəhy, Quran ayələri vəhy katibləri tərəfindən yazılmışdı. Əgər özü yazmağı bacarsaydı bunu edə

[10] Məcmu'ul-Fətə'va. 17/436.
[11] Səhihi Müslim. 1783.

bilərdi və ya yazması haqqında mötəbər bir rəvayət olardı. Ona görə də əsas etibarilə Quran ayələri və hədislərdə məlum olan mövqeyə etibar olunması gərəkir. O da peyğəmbərin ﷺ oxuyub yaza bilməməsidir. Oxuyub yaza bilməyən bir insana Qurani-Kərim kimi bir kitabın nazil olması isə böyük bir möcüzədir!

## İkincisi: Peyğəmbərin ﷺ Quranda Allah tərəfindən qınanması.

Bəşər övladı bir yazı yazdığı zaman özünü ucaldır və insanların yanında öz şəxsini böyük göstərməyə çalışır. Bəşər övladı bir yazı yazdığı zaman öz xatirəsinin və qürurlandığı şeyin əbədi qalmasına çalışır. İnsanlar öz yazılarında öz eyiblərini və xətalarını qeyd etməyi görməzlikdən gəlirlər.

Qurani-Kərimdə isə Allah öz elçisini bir neçə yerdə qınayır. Əgər Məhəmməd ﷺ peyğəmbər Quranı özü yazsaydı, bu qınaq olan yerləri də öz xeyrinə düzəldərdi ki, sonradan milyonlarla insanlar bu kitabı oxuyanda həmin yerləri görməsinlər.

Dedik ki, belə ayələr Quranda bir neçə yerdə mövcuddur. Bu ayələrdən biri Təbuk döyüşündən sonra döyüşdə iştirak etməkdən boyun qaçıran münafiqlərin müxtəlif üzrlər gətirmələri və peyğəmbərin onların üzrlərini qəbul edib onları bağışlamasına görə qınandığı ayədir. Ayə belədir: "Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları isə tanımamış nə üçün onlara cihaddan yayınmağa izin verdin?" (Tövbə, 43).

Bu ayələrdən biri isə Zeyd İbn Harisənin onun ﷺ yanına gəlib yoldaşı Zeynəbi boşamaq barədə onunla məşvərət etdiyi zaman peyğəmbər ﷺ ona tövsiyə edir ki, onu boşamasın. Baxmayaraq ki, Allah Zeydin öz

yoldaşını boşayacağını, Zeynəbin sonradan peyğəmbərin ﷺ yoldaşı və möminlərin anası olacağını bilirdi.[12]

Quran isə peyğəmbərin ﷺ nəfsində olan sirri aşkara çıxarır: "Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (Zeyd ibn Harisəyə): “Zövcəni yanında saxla, Allahdan qorx!”– deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır". (Əhzab, 37)

Aişə (Allah ondan razı olsun) demişdir: "Əgər Məhəmməd ﷺ ona nazil olan nəyi isə gizlətməli olsaydı, bu ayəni gizlədərdi"[13].

Həmçinin Quranda peyğəmbərin ﷺ Allah tərəfindən qınandığı ayələrdən biri də onun kor kişi (İbn Ümmü Məktum) yanına gəldiyi zaman ona diqqət göstərməyib ondan əvvəl yanında olan Qüreyşin böyüklərindən biri ilə söhbət etməsi idi. Peyğəmbər İslamı qəbul edəcəyinə ümid edərək Qureyşin böyüklərindən olan şəxsə vaxt ayırmışdı. Belə bir vəziyyətdə kor kişinin gəlib həmin yerə çıxması ilə peyğəmbər ona vaxt ayıra bilmir və əvvəlcədən danışdığı şəxsi İslama dəvət etməyə davam edir. Bundan sonra Abəsə surəsinin əvvəlindəki Quran

---

[12] Peyğəmbərin ﷺ həyat yoldaşı olan qadın İslamda möminlərin anası hesab olunur.
[13] (Buxari, 7420; Müslim, 177).

ayələri nazil olur və Allah Muhəmməd peyğəmbəri ﷺ bu əməlinə görə qınayır. Həmin ayələr belədir: "O qaşqabağını sallayıb üzünü yana çevirdi – yanına bir korun gəlməsinə görə. Nə bilirdin ki, bəlkə o günahlardan təmizlənəcəkdi.və yaxud nəsihət dinləyib faydalanacaqdı. Nəsihətə ehtiyacı olmayana gəlincə isə – sən ona diqqət yetirirsən. Onun təmizlənməməyinin sənə bir dəxli yoxdur. Səy göstərib sənin yanına gələn, Allahdan qorxan kimsəyə gəlincə, ona məhəl qoymursan!" (Abəsə, 1-10).

Əgər Quran Məhəmmədin ﷺ sözü olsaydı, Quranda belə bir ayə olmaz və ya o bunu silərdi. Şərqşünas Leitner "İslam dini" adlı kitabında bu barədə demişdir: "Bir dəfə Allah bu peyğəmbərə nüfuzlu şəxslərdən biri ilə danışdığı üçün kasıb və kor kişidən üzünü çevirməsini şiddətlə qınayan ayələr göndərir. O bu ayəni (gizlətmədən, olduğu kimi) yaymışdır. Əgər Məhəmməd yalançı biri olsaydı, bu ayə indi mövcud olmazdı"[14].

Həmçinin Allah Öz peyğəmbərini ﷺ o bal yeməyi öz nəfsinə haram etdiyi zaman qınamışdır. O zaman ki, o həyat yoldaşlarından birinin yanında bal yedi, digər iki həyat yoldaşı ondan məğafir qoxusu gəldiyini dedi. Bu (məğafir) dadlı bir yemək olsa da pis qoxu verən bir yemək növü idi. Beləcə, peyğəmbər bal yeməyi özünə

---

[14] (Qalu anil-İsləm, İmədud-Din Xalil, (ərəbcə). səh 134).

haram edir. Uca Allah isə bu ayəni nazil edir: "Ey Peyğəmbər! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən?" (Təhrim, 1).

Əgər Məhəmməd ﷺ peyğəmbər Quranın həqiqi müəllifi olsaydı, o zahiri özünə qarşı olan bu xitabı etməzdi. Həmin ayə budur: "Əgər Biz səni dinində sabit saxlamasaydıq, əlbəttə, azca da olsa onlara meyl edəcəkdin. Belə olacağı təqdirdə sənə həyatın və ölümün əzabını ikiqat daddırardıq. Sonra Bizə qarşı özünə bir köməkçi də tapa bilməzdin". (əl-İsra, 74-75)

Əgər Quran Məhəmməd ﷺ peyğəmbərin öz yazdığı kitab olsaydı, o özü haqqında bu sözləri deməzdi: "Əgər Muhəmməd bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi". (əl-Haqqa. 44-47)

## Üçüncüsü: Quranın vəhy olmasına şahidlik edən hadisələr:

Quran ayələri daim peyğəmbəri ﷺ qınamaq şəklində nazil olmamışdır. Bəzən peyğəmbərin xoşladığı və sevdiyi şeylərin əksi olaraq nazil olmuşdur.

Bu hadisələrdən biri də münafiqlərin böyüklərindən biri olan Abdullah İbn Ubey vəfat etdiyi zaman peyğəmbər ﷺ onu paltarında kəfənləməsi, sonra isə ona cənazə namazı qılıb onun üçün Allahdan bağışlanma diləmək istədiyi zaman baş verdi.

Bu zaman Ömər (Allah ondan razı olsun) dedi: Rəbbin sənə bunu qadağan etdiyi halda sən ona (bu münafiqə) namaz qılacaqsan?!

Peyğəmbər ﷺ dedi: "Rəbbim yalnız mənə seçim (ixtiyar) vermiş və buyurmuşdur:

"Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır". (Tövbə, 80) (Sonra peyğəmbər deyir) Mən isə yetmiş dəfədən çox bağışlanma diləyəcəm".

Peyğəmbər hər bir insanın Allahın rəhmətini qazanmasına həris idi. Bundan sonra Allah bu Quran ayəsini nazil edir: "Heç vaxt onlardan ölmüş bir kəsin

cənazə namazını qılma, qəbrinin başında da durma". (Tövbə, 84) Bundan sonra peyğəmbər ona namaz qılmadı"[15].

Başqa bir hadisə isə peyğəmbərin ﷺ doğma əmisinin vəfatı yaxınlaşdığı zaman baş verdi. Peyğəmbər onun can üstə olduğu halda onun yanına gəldi, Əbu Cəhl [16] də orada idi.

Peyğəmbər ﷺ buyurdu: "Ey Əmim! Lə ilahə illəllah [17] - de ki, bu kəlimə ilə Allah qatında sənə üzürxahlıq edim".

Bu zaman Əbu Cəhl və (münafiqlərin başçısı) Abdullah İbn Ubey dedilər: "Ey Əbu Talib! Sən Əbdul-Muttalibin dinindən (bütpərəstlikdən) üz döndərirsən?!" Onlar Əbu Talibi o qədər sözə tutdular ki, hətta, onun son sözü belə oldu: Əbdul-Muttalibin dini üzərə (ölürəm).

Bundan sonra Peyğəmbər öz əmisinin İslamdan başqa yolu seçərək ölməsinə üzülərək dedi: "**Mənə qadağan olunmadıqca sənin üçün bağışlanma diləyəcəyəm"**. O bu sözləri əmisinin onu çox müdafiə etməsinə və ona arxa dayaq olmasından təsirlənərək

---

[15] (Buxari, 4670; Müslim, 2400).

[16] Əbu Cəhl - Peyğəmbərin ona düşmənçilik edən digər əmisi. Əbu Cəhl də sağlığında peyğəmbərə ən çox düşmənçilik edən şəxslərdən biri olmuşdur.

[17] Yəni Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

onun yaxşılığına qarşı bir mənəvi borc kimi və ya vəfasını ifadə edərək demişdi. Bundan sonra Allahın ayəsi onun istəyinə əks olaraq nazil oldu: "Müşriklərin Cəhənnəm sakinləri olduqları onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz". (Tövbə, 113)

Həmçinin bu ayə nazil oldu: "Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən". (Qasas, 56)

Bir gün (peyğəmbər) fəcr namazını qıldı və başını rükudan qaldırdı. Qureyş kafirlərinin dostlarına (səhabələrinə) etdiklərindən (əzab-əziyyətlərdən) dolayı qəlbi sıxılmış halda dedi: "Ey Allahım sənə həmdü-sənalar olsun! Allahım filankəsə, filankəsə və filankəsə lənət et!" Sonra Allah bu ayəni nazil etdi: ***"Bu işin sənə aidiyyəti yoxdur. Allah ya onların tövbəsini qəbul edər, ya da onlara əzab verər. Çünki onlar zalımdırlar".*** (Ali İmran, 128)

Belə olduğu halda peyğəmbərin ﷺ Quranı özündən yazmasını kim fərz edə bilər?! Bu barədə Allah buyurmuşdur:

"Əgər istəsəydik, sənə vəhy etdiyimizi qəlbindən silib aparardıq. Sonra bundan dolayı Bizə qarşı özünə himayəçi tapa bilməzdin. Ancaq Rəbbinin mərhəməti sayəsində bunu etmədik. Doğrudan da, Onun sənə olan lütfü böyükdür". (əl-İsra, 86-87)

Belə bir iddianın batil olmasına dəlillərdən biri də peyğəmbərə davamlı gələn vəhyin bir müddət kəsilməsi idi. Halbuki, cavabı gözlənilən çox mühüm məsələlər var idi və peyğəmbərə vəhy nazil olmadığı üçün həmin dövrdə köksü çox daralırdı.

Bu hadisələrdən birini qeyd etməklə kifayətlənirik:

Münafiqlər peyğəmbərin ﷺ həyat yoldaşı Aişə (Allah ondan razı olsun) haqqında böhtan yaymışdılar (ifk hadisəsi). Aişənin təmiz, günahsız olması barədə ilahi vəhy gecikdi, peyğəmbər və müsəlmanlar uzun müddət gözləməli oldular. İnsanlar isə (bu müddət ərzində) ifk hadisəsi barəsində danışırdılar. Hətta ürəklər boğaza gəlib çatmışdı. Peyğəmbər ﷺ isə bütün təmkinli halı ilə tələsmədən deyirdi: **"Mən Aişə haqqında yalnız xeyir bilirəm".**

Beləcə o, bir ay ərzində qəm içində və səhabələri ilə məşvərət edərək qaldı. (Səhabələrin) Hər biri də deyirdi ki: "Biz ondan bir pislik görməmişik". Sonda peyğəmbər ﷺ ona belə dedi: "Ey Aişə, mənə bu cür xəbərlər gəlib çatıb. Əgər sən günahsızsansa, Allah səni təmizə çıxaracaqdır. Yox, əgər bir günah etmisənsə, Allahdan bağışlanma dilə![18]".

---

[18] (Buxari, 2661; Müslim, 2770).

Sonra ona bu ayə nazil oldu: "Şübhəsiz ki, (Aişə barəsində) yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir". həmçinin bu ayəyə kimi: "Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir" (Nur,11-26). Bununla da insanlar Aişənin günahsız olduğunu bildilər. Allahın kəlamını düz bir ay gözləməli olurlar.

Görəsən, peyğəmbər ﷺ özü Quranın müəllifi olsaydı, həyat yoldaşının namusunu təmizə çıxartmaq və bir ay davam edəcək söz-söhbətə son qoymaq üçün dərhal bu kəskin sözləri söyləyə bilməzdimi ki, söz gəzdirənlərin də dili artıq sussun?! O istəsə bunu bir gündə də edə bilərdi. Lakin peyğəmbər etibarlı, doğru sözlü kəs idi ki, o nə insanlara yalan danışa bilməz, nə də Allahın adından yalan uydura bilməzdi. Uca Allah buyurur: ***"Əgər Muhəmməd bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi"***. (əl-Haqqa, 44-47). Həmçinin Uca Allah buyurmuşdur: **"Sən bundan əvvəl nə bir Kitab oxuya bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər".** (əl-Ənkəbut, 48).

## Dördüncüsü: Quranın möcüzəvi bir kitab olması.

Əgər bir saniyəlik Quranın peyğəmbərin ﷺ yazısı və inşası olması iddiasına qayıtsaq və Quranın tərtibini, üslubunu peyğəmbərin hədis kitablarında toplanmış hədislərdəki üslubu ilə müqayisə etsək, Quran və hədislərin üslubu arasında mövcud olan böyük fərqi nəzərə alaraq belə bir şeyin, yəni bir yazıçının bir-birindən ciddi şəkildə fərqlənən iki fərqli üslubda yazmasının mümkün olmadığına bir daha əmin olarıq.

Əgər bu fikri izah etmək üçün bir misal çəkmək istəsək, Quranın bəyanı və üslubunu peyğəmbərin sözləri ilə müqayisə edərək, böyük fərqin olduğunu görə bilərik. Halbuki hər ikisi bəlağətli sözlərdir. Misal olaraq hədisdəki: "Həqiqətən də, əməllər niyyətlərə görədir. Hər kəs də öz niyyət etdiyini əldə edər. Hər kimin hicrəti (köçməsindəki niyyəti) Allaha və Onun elçisinə hicrət etməkdirsə, onun hicrəti Allaha və elçisinə tərəfdir…"[19].

Bu sözlər bəlağətli ərəb sözləridir. Lakin Allahın bu ayələri arasında çox böyük fərq var: "Ayələrimizi inkar edib: “Mənə hökmən var-dövlət və övlad veriləcəkdir!”– deyən adamı gördünmü? Olmaya, o, qeybdən xəbərdardır, yoxsa Mərhəmətli Allahdan vədə almışdır? Xeyr! Biz onun dediklərini yazacaq və əzabını qat-qat artıracağıq. Onun dediyi şeylər Bizə qalacaq və o,

---

[19] (Buxari, 1; Müslim, 1907).

hüzurumuza tək-tənha gələcəkdir. Müşriklər Allahdan başqa məbudlar qəbul etdilər ki, onlara kömək olsunlar. Xeyr! Qiyamət günü o bütlər onların ibadətini inkar edəcək və onların əleyhinə çıxacaqlar. Məgər kafirlərin üstünə onları günaha sövq edən şeytanları göndərdiyimizi görmürsənmi? Odur ki, onlardan ötrü əzab diləməyə tələsmə. Biz onların günlərini bir-bir sayırıq". (Məryəm, 77-84). Bu bizim dilimizə tərcümə olsa da, yenə də həm ayə, həm də hədislər arasındakı üslub və ya danışıq tərzi hətta sıravi insanlar arasında belə gizli qalmayacaq dərəcədə aydın bir fərqlə görünür. Görün indi bu misal fəsahət və bəyan əhli arasında necə bir fərqlə aydın görünür?! Bu fərq ərəb dilində daha çox zahir olur. Bunu ərəbcə bilənlər yaxşı bilirlər.

Əgər Quran Məhəmmədin ﷺ yazısı olsaydı, onda onun "yazdığı bu kitab" necə oldu ki, ərəb dilinin bəlağət sahiblərini, ədəb və bəyan öndərlərini heyran və məəttəl qoydu?! O necə bu böyük şəxsiyyətlərə qarşı Quranın bir mislində yazı gətirməkdə meydan oxudu?! Bəs niyə o bu əzəmətli kitabı özünə nisbət edib bu möhtəşəmliyi və şərəfi özü əldə etmək istəmədi?! Məgər daha münasib olan o deyildimi ki, o bu kitabı özünə nisbət edəydi?! Beləcə, heç kim bu kitabın yiyəsi olduğundan dolayı ona qarşı gəlməzdi.

Allah Qurani-Kərim kitabını peyğəmbərin ﷺ ən böyük və ən davamlı möcüzəsi etmişdir. Bu kitab onun hər zaman və hər əsrdə möcüzəsidir. Qurandakı ayələr bu kitabı Muhəmmədin ﷺ yazdığını iddia edənlərə

meydan oxumuş və onun mislini gətirməyə dəvət edərək meydan oxumuşdur. İnsanın sözünün eynisini gətirmək mümkündür, amma Allahın sözünün eynisini gətirmək mümkün deyil.

Ərəblər isə fəsahət və bəyan sahibi olmalarına baxmayaraq, onun mislində bir surə belə gətirə bilmədilər. Quranın meydan oxuması üç mərhələdə oldu:

Birincisi; Qurana bənzər bir kitab gətirmək;
İkincisi; Quranın misli olan on surə gətirmək.
Üçüncüsü; Quranın misli olan bircə surə gətirmək.[20]

Onlar isə ərəb dilində güclü olmalarına baxmayaraq, bunu edə bilmədilər. Onlar bunu Qiyamətə kimi də edə bilməzlər. "Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz …" (əl-Bəqərə, 23).

Uca Allah onların bu acizliyi barədə buyurur: "De: “Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər”. (əl-İsra, 88).

Bu məsələyə aid bir hadisə yadıma düşdü. Bir dəfə sosial şəbəkələrdən birində bir azərbaycanlı ateistin düşdüyü gülünc vəziyyətin şahidi oldum. O özündən 12

[20] (Tur, 33-34; Hud, 13; əl-Bəqərə, 23).

cümlə yazmış, bu cümlələrin altısını, yəni yarısını Qurandan götürmüş, sonra uyğun gəlməyən sözləri "*özü də Azərbaycan dilində*" yazaraq ərəbcə olan Qurana meydan oxumaq istəyərək özünü gülünc vəziyyətə qoymuşdu.

1) Onun birinci xətası ərəbcə Qurana qarşı azəricə Quran misli gətirmək cəhdi idi.
2) İkinci xətası isə cümlələrdə ahəngdarlığın və orijinallığın olmaması idi.
3) Üçüncü xətası (qələti) isə "pivə surəsi" adlandırdığı, guya Quranın mislini gətirdiyini iddia etməsi idi ki, burada həm istehza, həm haramı halal saymaq, həm də Allahın adından yalan danışmaq var idi.

Yazımızın daha da uzanmaması üçün onun saçma-sapan, ürək bulandıran sözlərini qeyd etmirəm. Xülasə, o insan özü də öz yalanına şahidlik etdi. Bir də onların öz ağıllarından qeyd etdikləri gülünc yazıları qeyd edib onlara dəyər vermək lazım deyil. Lakin bu məsələni və düşdükləri gülünc halı və hansı nahiyədən xətaya düşdüklərini izah etdim ki, insanlar belə təhqirlərə və hiylələrlə aldanmasınlar.

Həmçinin Qurani-Kərimin ecazkarlığından biri də 29 surənin əvvəlində olan **"rəmzi hərflərdir"**. Hər surədə bu hərflərin çoxu qeyd olunduqdan sonra sırf Quran barədə bəhs edilir. Sanki bir növ işarə verilir ki, bu sizin yazdığınız və danışdığınız hərflərdir. Nəzminiz,

nəsriniz və şeiriniz bu dildədir. Əgər bacarırsınızsa, bu Qurana bənzər bir kəlam gətirin. Bu ayələrdən:

"Əlif. Ləm. Mim. Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır". (əl-Bəqərə, 1-2)

"Əlif. Ləm. Ra. Bu, hikmətli Kitabın ayələridir" (Yunus, 1).

"Əlif. Ləm. Ra. Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır" (Hud, 1).

"Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır" (ər-Rad, 1).

"Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır" (İbrahim, 1).

"Ta. Ha. Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən". (Taha, 1-2).

"Əlif. ləm. Mim. Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi olan Allah nazil etmişdir".

"Ta. Sin. Mim. Bunlar Kitabın ayələridir" (əs-Şuəra, 1-2).

Dahi təfsir alimi İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Quran surələrinin əvvəllərində qeyd olunan bu hərflər Quranın ecazını bəyan etmək və yaradılmışların bunun eynisini gətirməkdən aciz olduğunu bildirmək üçün qeyd olunmuşdur"[21].

Bu meydan oxumaq gecə və gündüz davam etdikcə mövcuddur. Dövrünün ən bəlağətli adamları bu meydan oxuma qarşısında aciz qaldığı halda, bu gün dili daha zəif olanlardan kiminsə belə iddia etməsi[22] daha absurddur. Özü də başqa dildə olanlardan bu iddia daha gülünc görünür. Yuxarıda Azərbaycan dilində danışan şəxsin törətdiyi əməl də buna misal çəkilmişdi.

Ədəbiyyat tarixində məşhur və böyük şair olan, özü bir şeir məktəbi hesab olunan İbnul-Muqaffə[23] dövrünün ən fəsahətli şəxslərindən biri idi. O Quran ayəsi oxuyan bir uşağın yanından keçir və bu ayəni eşidir:

---

[21] (Təfsirul-Quranil-Azim, 1/60)

[22] Yəni Qurana bənzər söz gətirmək istəyi.

[23] İbnul-Muqaffə (724-759): Fars əsilli şairdir, mənbələrdə məcusi olması, maniliyi təbliğ etməsi, sonradan İslamı qəbul etməsi qeyd edilmişdir. Bir çox ədəbi kitabların müəllifi olmuşdur. Ən məşhurlarından "əl-Ədəb əl-Kəbir" və "əl-Ədəb əs-Sağir" kitablarını qeyd etmək olar.

وَقِيلَ يَا أَرْضُ ابْلَعِي مَاءَكِ وَيَا سَمَاءُ أَقْلِعِي وَغِيضَ الْمَاءُ وَقُضِيَ الْأَمْرُ وَاسْتَوَتْ عَلَى الْجُودِيِّ ۖ وَقِيلَ بُعْدًا لِّلْقَوْمِ الظَّالِمِينَ

"Sonra deyildi: “Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!” Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Sonra deyildi: “Məhv olsun zalım adamlar!” (Hud, 44).

Bu ayəni dinləyəndən sonra geri qayıdır və İslam barədə mənfi fikir olan şeirlərini silir və deyir: Şəhadət edirəm ki, bu ziddiyyətli söz deyil və bu bəşər övladının sözü ola bilməz"[24].

Təbii ki, bu ayənin tərcüməsini oxumaqla ərəbcə əslindən onu bəlağətli şəklində oxumaq böyük fərq edir. Ərəbcə bilən şəxs ayədəki bəlağəti, əzəməti, ilahi kəlamın qüdrətini tamamən orijinalından dinləməklə və ya oxumaqla hiss edir və daha çox təsirlənir.

Buna bənzər bir hal Əndəlüs xilafəti zamanında Əndəlüsün ən bəlağətlisi Yəhya İbn Hakəm əl-Ğazzəl[25] tərəfindən baş verir. Rəvayət olunur ki, o Quranda ziddiyyət olduğunu iddia edir. Sonra o "İxlas" surəsinə

---

[24] (Bax, əş-Şifə bitəarifi Huququl-Mustafə, əl-Qadi İyad, 1/275)
[25] Yəhya ibn Hakəm əl-Ğazzəl (773-864): Əndəlüs şairi və yazıçısı olmuşdur. Əbu Novvas və Əbu Təmməmin şeirlərindən təsirlənmişdi. Bir çox şeir növlərində mükəmməl şeirləri ilə seçilir, əruz, qəzəl yazır, ictimai tənqidlər edirdi. Ən məşhur əsərlərindən biri Əndəlüsün tarixi, fəthi və fəthən sonrakı hadisələri vəsf edən "Urcuzə" mənzuməsidir.

baxır, ona bənzər bir söz demək istəyir, lakin o aciz qalaraq deyir: "Bu surə məni qorxuya saldı və qəlbimi yumşaltdı. Bu surə məni tövbəyə və Allaha dönməyimə səbəb oldu[26]".

Bu yazımızda Avropada Qurana bənzər kəlam gətirmək istədiyi halda aciz qalan fəlsəfəçi, mütəfəkkir, keşiş və s. şəxslərin sonda aciz qalmalarını ifadə edən qissələri gətirib mövzunu daha da uzatmaq istəmirəm.

Quranın düşmənləri keçmişdə də Qurana düşmən olsalar belə Quranın əzəmətini etiraf etmişlər. Valid İbn Muğira Qureyşin ağası və peyğəmbərə ﷺ qarşı döyüşməkdə ilklərdən olsa da Quranın bu ayəsinin ərəbcəsini eşidir:

"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız". (Nəhl, 90) Sonra isə öz məşhur sözünü deyir: "Vallahi bu deyilən sözlərdə bir şirinlik və cazibə var. Onun yuxarısı bəhrəli, aşağısı isə zəngindir [27]. O yüksəlir və onun üzərinə yüksəlmək olmur. O öz altındakı (sözləri) sındırır"[28].

---

[26] (Eyni mənbə, 1/275)

[27] O, burada Quranın aşağısını kökü su ilə bol olan ağaca bənzədir.

[28] (Siratun-Nəbəviyyə, İbn Kəsir, 1/499).

Müsəlmanlara düşmən kəsilmiş Məkkə müşriklərindən biri Utbə ibn Rabia[29] Peyğəmbərin ﷺ yanına gəldiyi zaman onun "Fussilət" surəsinin əvvəllərini oxuduğunu eşidir. Bundan sonra o Qureyş qəbiləsinin yanına qayıdaraq deyir: "Vallahi mən elə bir söz eşitdim ki, bundan öncə belə bir söz eşitmədim. Bu nə şeirdir, nə sehrdir, nə də kahinlikdir. Ey Qureyş toplumu! Mənə tabe olun və onun halını mənə buraxın. Bu adamı üzərində olduğu halda  başını buraxın. Vallahi bundan eşitdiyim sözlərin böyük bir gələcəyi olacaqdır!"[30].

Ömər ibnil-Xəttab'ın (Allah ondan razı olsun) İslamı qəbul etməsinin hekayəsi də məşhurdur. O zaman ki, o bacısının evinə gedir və onun "Taha" surəsinin əvvəllərindən oxuduğunu görür, bu vaxt onun qəlbi yumşalır və İslamı qəbul edir. Bundan sonra o Allahın haqq ilə batili ayırd edən islahatkar bir quluna çevrilir.

---

[29] Utbə İbn Rabia (555-624): Məkkədə dünyaya gəlmiş və orada yaşamışdır. İslam düşmənlərindən biri kimi vəfat etmişdir. Ədəbiyyatı bilən biri kimi dəfələrlə Qurandan təsirlənmiş, Quranın fərqli bir kəlam olduğunu etiraf etmişdi, lakin İslamı qəbul etmədən "Bədr" döyüşündə müşriklərin sırasında olduğu üçün Həmzə tərəfindən döyüş meydanında qətl edilmişdir. Onun İslama meyl etməsi haqqında ən təsirli rəvayətlərdən biri də burada qeyd edilən rəvayətdir. Tək o deyil, bir çox İslam düşmənləri gizlicə Quran dinləyərkən halları dəyişilirdi.

[30] (Beyhəqi, "Dəlailun-Nubuvvə", 2/202. İbn İshaq, "Sira", 1/187).

Cubeyr ibn Mut'im[31] isə axşamçağı (məğrib vaxtı) peyğəmbərin ﷺ "Tur" surəsini oxuduğunu müşahidə edir. O zaman ki, bu ayəyə çatır: "Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa sənin Rəbbinin xəzinələri onlardadır? Yaxud onlar hökm sahibidirlər? Yoxsa sənin Rəbbinin xəzinələri onlardadır? Yaxud onlar hökm sahibidirlər?" (Tur. 35-37) deyir: "Az qala qəlbim (sevincdən) uçsun". Bir rəvayətdə isə deyir: "Bu mənim qəlbimdə imanın ilk təsiri idi"[32].

Həmçinin Tüfeyl əd-Dəusi[33] Məkkəyə gəldiyi zaman Qureyş qəbiləsi onu Quranı dinləməkdən çəkindirir. Lakin bir gün o öz ağlının başında olduğunu düşünür, fikirləşir ki, mən pislə yaxşını ayırd edə bilirəm. Onu dinləyim, pis bir şey olsa, qəbul etmərəm. Beləcə, Peyğəmbərin yanına gedir və Onun Quran oxumasını dinləyir. Az sonra isə İslamı qəbul edir[34].

Bu yerdə müasir dövrdə ədalətli şərqşünaslardan Quranın əzəmətinə şahidlik edən, Quranın möhtəşəm ahəngdarlığına heyran qalan, Quranın heyrətamiz uyğunluğunu ifadə edən Fon Hammer'in sözünü qeyd

---

[31] Cubeyr ibn Mut'im: Məkkədə doğulmuşdur, doğum tarixi bəlli deyil, hicrətin 57-ci və 59-cu illəri arasında vəfat etməsi haqda nəqllər var. O, (Allah ondan razı olsun) Quran dinləyərək İslama könül verən səhabələrdən biridir.
[32] (Buxari. 4023 və 4854).
[33] Tufeyl əd-Dəusi (580-633): Dovs qəbiləsinin şairlərdən idi. İslamı ilk qəbul edənlərdən biri olmuşdur. 633-cü ildə "Yəmamə" döyüşündə şəhid edilmişdir.
[34] (Siratu İbn Hişam. səh. 382).

etmək yerinə düşərdi. O demişdir: "Quran yalnız İslam dininin qanunlar toplusu deyildir. Quran həm də ərəb dilinin bəyan edilməsində bir zirvədir. Quranın üslubu isə müdhiş bir şəkildə onun Allah tərəfindən nazil olan bir vəhy olduğuna şahidlik edir. Bu göstərir ki, Muhəmməd ﷺ də öz hakimiyyətini bu möhtəşəm (ilahi) xitab ilə yaymışdır. Ona görə də mümkün deyil ki, bu (ilahi) kəlam bəşər övladının səylərinin bəhrəsi olsun[35].

"İslam həyat qanunu" kitabında şərqşünas Filip deyir: "Həqiqətən də Quranın üslubu başqa kitablardan fərqlənir. Bu üslub başqa üslublarla müqayisəni qəbul etmir. Bu üslubda başqa üslublara təqlidçilik də mümkün deyil. Bunun kökündə də Quranın ecazı durur. Ona görə də Quran bütün möcüzələr içərisində böyük möcüzədir" [36].

Fransız filosofu Henry Seroya "İslam fikrinin fəlsəfəsi" kitabında deyir: "Quran Allahdan olan elə bir yüksək və ali üslubdadır ki, buna bəşərin üslubu yaxın belə düşə bilmir"[37].

Quranın ali üslubu barədə məşhur şərqşünas və yazar Höte demişdir: "Quran bəşər kəlamı deyildir. Əgər biz onun Allahdan olduğunu inkar etsək, bunun mənası Muhəmmədi ﷺ ilah olaraq qəbul etmək deməkdir". O,

---

[35] (Tənzihul-Quranil-Kərim an dəaval Mubtilin, səhər 85; dr. Munqiz Səqqar).
[36] (Eyni mənbə, səh 86).
[37] (Eyni mənbə, səh 86).

həmçinin demişdir: "Quranın üslubu çox ucadır və müdhişdir. Quran kitabların kitabıdır (yəni ən üstün kitabdır). Mən hər dəfə onu oxuduqda bədənimdə ruhumun necə heyranlıqla lərzəyə gəldiyini hiss edirəm" [38].

Sonra deyir: "Hər dəfə Qurana yaxınlaşdıqca hislərimiz yenilənir, sonra o tədricən bizi özünə cəlb edir və bizdə heyrətamiz təsir oyadır. Sonda isə o bizi özünə bağlayır" [39].

---

[38] (Qaluu anil-İsləm. səh 145; İmadəddin Xəlil).
[39] (ər-Rəsul - Məhəmmədin həyatı. səh. 285; Ronald Boodly).

## Beşincisi: Qeybdən xəbər vermək.

Quranın Məhəmməd ﷺ peyğəmbərə nisbət edilməsini mümkünsüz edən amillərdən biri də Quranda gələcək zaman (qeyb) barədə verilən (öncəgörmələr) məlumatlardır. Hansı ki, bu gələcəkdən verilən bilgilər yalnız gələcəyi bilən biri tərəfindən ola bilərdi ki, o da Allahdır. Qeyb, gələcəkdən məlumatlar Allahın bir sirridir ki, bunu yalnız Allah bilir və O öz istədiyinə bu barədə məlumat verə bilər. Necə ki, Quranda bu barədə buyurulmuşdur:
"O, qeybi Biləndir və Öz qeybini razı qaldığı elçidən başqa heç kəsə açmaz; Həqiqətən, Allah onların önündə və arxasında gözətçilər qoyur ki, hər kəs onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. Allah onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır". (əl-Cinn, 26-28)

Quranda Muhəmməd ﷺ peyğəmbərə də belə deməsi əmr olunmuşdur: "De: “Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram””. (əl-Ənam, 50)
"De: “Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, özüm üçün xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm””. (əl-Əraf, 188)

O peyğəmbər özündən bir şey deməmiş və Allahdan olan vəhyi bizə çatdırmışdır. Onun gələcək barədə verdiyi proqnozlar doğru çıxmış və onun doğru bir peyğəmbər olmasını təsdiqləmişdir.

Uca Allah həmçinin Quranda buyurmuşdur: "Bunlar sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi. Səbir et! Şübhəsiz ki, gözəl aqibət müttəqilərindir". (Hud, 49).

Qurani-Kərimdə olan qeybi xəbərlərin ən məşhurlarından Rumluların (Bizanslıların) məğlub olduqdan sonra yenidən qələbə qazanacaqları barədə xəbərdir. Uca Allah bu barədə Quranda buyurmuşdur: "Rumlular məğlub edildilər; ən aşağı (və ya ən yaxın) bir yerdə. Lakin onlar öz məğlubiyyətlərindən sonra qələbə çalacaqlar; bir neçə il ərzində. Əvvəl də, sonra da hökm Allahındır". (ər-Rum, 2-4).

Bu ayələrdə bir neçə xəbər verilir. Rumluların (Bizanslıların) məğlubiyyətdən sonra qələbə qazanacaqları, hadisənin bir neçə il ərzində baş verəcəyi bildirilir və nəticə Quranda bildirildiyi kimi olur. Həmin dövrdə Bizanslılarla Farslar arasında gərgin və uzunmüddətli döyüşlər gedirdi. İlk məğlubiyyəti dadan Bizanslılar növbəti döyüşdə qələbə qazanacaqdılar. Bu çox insanlara inandırıcı gəlməsə də Quranda

gələcəkdən verilən xəbər doğru çıxdı. Farslar Bizanslılara yeddi il sonra məğlub oldular[40].

Quranın ilahi kəlam olmasını təsdiqləyən qeybi xəbərlərdən biri də Quranda İslamın geniş arealda yayılacağı və İslamın başqa dinlərdən fərqli şəkildə üstünlük əldə edəcəyinə işarə edilməsidir. Allah Quranda buyurur: "Müşriklərin xoşuna gəlməsə də, İslam dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur". (Saf, 9) Bu ayə müsəlmanların Uhud döyüşündə məğlub olmalarından sonra nazil olmuşdur. Peyğəmbər bu ayəni güclü vaxtlarında deyil, müsəlmanların ən zəif vaxtlarından birində oxumuşdur. Hansı ki, belə bir vəziyyətdə zənn və təxminə yer qalmır.

Həmçinin müsəlmanların zəif vaxtı bütün qəbilələr onlara qarşı birləşib onların axırına çıxmaq fürsətini əldə etdikləri və müsəlmanların üzərinə hər yandan qorxu kölgəsi gəldiyi, o cümlədən təhlükənin şiddətindən onların silahla yatıb silahla sabahladıqları bir zamanda dedilər: Gördüyünüz kimi biz hüzur içində yaşayırıq və yalnız Allahdan qorxuruq. Allah da müsəlmanları Quranda müjdələyərək buyurdu: "Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün

---

[40] İbn Kəsir "Təfsirul-Quranil-Azim" əsərində bu hadisə barədə olan rəvayətləri ətraflı qeyd etmişdir. (Bax, eyni ayənin təfsirinə).

varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar"[41].

Bəli, belə də oldu. Ayədə deyilənlər gerçəkləşdi. Onlar qorxu içində olduqdan sonra Allah onları əmin-amanlığa çıxartdı, onların sayını yer üzündə artırdı. Allah onları zəif olduqdan sonra əsrlər boyunca yer üzünün hakimləri etdi. Allah onların üzərində olduqları İslamı dünyanın şərqində və qərbində geniş ərazilərdə yaydı.

Qurandakı (öncəgörmələrdən) qeyb xəbərlərindən biri də Bədr döyüşündə müsəlmanların qalib gəlmələrinin xəbər verilməsidir. Bu zəfər xəbəri isə müsəlmanların Məkkədə əzab-əziyyət, şiddətli zülm və çətinlik içində olduqları bir vaxtda Quranda xəbər verilmişdi. Belə bir şiddətli bəlanın yaşandığı vəziyyətdə Quranın bu ayələri nazil olur: "Sizin kafirləriniz onlardan yaxşıdırmı? Yoxsa Kitablarda sizə toxunulmazlıq vəd edilmişdir?

Yoxsa onlar: “Biz qalib gələcək bir dəstəyik!”– deyirlər? Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır. Xeyr! Onlara vəd edilmiş vaxt o

---

[41] (Nur surəsi, 55-ci ayə; Bu rəvayəti isə Beyhəqi "əd-Dələil"də gətirmişdir. 7-6,3; həmçinin Hakim "Müstədrək"ində, 2/434)

Saatdır. O Saat isə daha ağır, daha acıdır". (Qamər, 43-36).

Ömər ibn Xəttab (Allah ondan razı olsun) bu ayə barədə öz-özünə düşünərkən deyir: Görəsən, bu məğlub olacaq dəstə hansı dəstədir? Bədr (döyüşü) günü peyğəmbərin ﷺ dəbilqədə sıçrayaraq belə dediyini eşitdim: **"Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır".** Həmin gün mən bu ayənin mənasını başa düşdüm![42]

Bu qeyd olunan ayə peyğəmbərin ﷺ Məkkədən köç etməsindən (hicrətindən) illərlə öncə nazil olmuşdur. Hansı ki, bu ayədə Bədr savaşından, bu savaşda müşriklərin məğlub olacağından və səflərinin darmadağın olacağından bəhs olunur.

Bədr döyüşündən bir qədər əvvəl isə peyğəmbər Allahın ona Məkkədə vəd etdiyi zəfərin yaxınlaşdığını hiss edir. Sonra öz iqamət etdiyi yerə tərəf gedib Rəbbinə dua edib yalvarır: "Ey Allahım! Sənin verdiyin vədə and verirəm ki, əgər bu gün möminlər həlak olsa, artıq Sənə ibadət edən qalmayacaq! (Bizə yardım et!)" Sonra peyğəmbər öz olduğu yerdən çıxaraq belə deyir: "Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır. Xeyr! Onlara vəd edilmiş vaxt o Saatdır. O Saat isə daha ağır, daha acıdır". (Qiyamət, 45-46).

---

[42] (Təfsirul-Quranil-Azim, 4/266; İbn Kəsir bu xəbəri ibn Əbi Hatimin öz təfsirində rəvayət etdiyini deyir).

Eləcə də baş verdi. Beləcə onların hamısı darmadağın düşdülər və arxalarına çevirib qaçdılar. Allahın Öz elçisinə verdiyi vədi doğru çıxdı. Bu xəbərin gerçəkləşməsi də bir daha onu sübut edir ki, bu Quran qeybləri Bilən Allah tərəfindən nazil olmuşdur.

Həmçinin, Qurani-Kərim bizə insanların yalnız o dövrdə istifadə etdikləri gəmi, at, dəvə, uzunqulaq və s. kimi minik vasitələrini misal çəkməklə kifayətlənmir, əksinə, Allah gələcəkdə insanların bilmədiyi bəzi minik vasitələrini də yaranacağını xəbər vermişdir. Uca Allah buyurur:

"Onların nəslini yüklü gəmidə daşımağımız da onlar üçün bir dəlildir. Biz onlar üçün buna bənzər daha neçə-neçə minik vasitələri yaratdıq". (Yasin. 41-42).

Bəli, bu günkü bir çox rahat minik vasitələrinin olacağını müsəlmanlar bu ayə ilə bilmiş oldular. Onlar əsrlər öncə bu ayə vasitəsilə bildilər ki, gələcəkdə onların gördüklərindən başqa minik vasitələri də olacaqdır.

Həmçinin, ət-Təhrim surəsinin üçüncü ayəsində də Quranda daha bir qeyb xəbərinə işarə edilir. Ayə belədir: "Bir zaman Peyğəmbər öz zövcələrindən birinə sirr verdi. O da bunu onun digər zövcəsinə xəbər verdikdə və Allah da bunu Peyğəmbərə aşkar etdikdə o, bunun bir qismini sirr verdiyi zövcəsinə bildirdi, digər qismindən isə vaz keçdi. Peyğəmbər bunu ona bildirdikdə zövcəsi

dedi: “Bunu sənə kim xəbər verdi?” O dedi: “Bunu mənə hər şeyi Bilən, Xəbərdar olan Allah xəbər verdi!”". (ət-Təhrim. 3).

## Altıncısı: Qədim dini kitablarda (Bibliya, Tövrat və s) olan bəzi məlumatlar Quranda niyə təsdiqlənir?

Bəziləri deyirlər ki, Qurandakı ayələr yəhudi və xristianların müqəddəs kitabları olan bibliya (incil) və ya tövratdan götürülmüşdür:

**Bu şübhənin cavabı belədir:**

**Birincisi:** Əgər belə olsaydı, yəhudi və xristianlar bu ittihama əsrlər öncə şahidlik edərdilər və bu sözləri təsdiqləyərdilər. Halbuki bu iddia son əsrdə ortaya atılmış bir fikirdir. Bu iddianı nə ərəblər, nə də yəhudi və xristianlar etməmişlər. Uca Allah Quranın qorunmasını nə peyğəmbərin, nə də bir mələyin öhdəsinə deyil məhz Öz öhdəsinə götürərək buyurmuşdur: "Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq". (əl-Hicr, 9) O, yenə buyurmuşdur: "De: “Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə

toplaşıb bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər”". (əl-İsra, 88).

Əgər bu kitab - onların iddia etdikləri kimi - yəhudi və xristianların kitabından götürülmüş olsaydı, onda onlar Quranın nazil olduğu ilk dönəmlərdən bu batil iddianı etməkdə tələsərdilər. Lakin həqiqət budur ki, Quranın ilk nazil olduğu zamanlarda heç bir yəhudi və heç bir xristian bu iddianı etməmişdir. Çünki onlar Quranla həmin kitabların açıq-aydın fərqini (istər etiqadi, istər də hökmlərlə əlaqəli) çox yaxşı bilirdilər. Ərəblər özləri də bu iddianı etməmişdilər. Çünki ərəblərin özləri ərəb dilinin əhli olduqları üçün bu ilahi kəlamın əzəmətini dərk edirdilər. Ərəb şeirinin, ədəbiyyatının tarixdə ən yüksək mərhələsinə çatmasına baxmayaraq, Allah onlara əgər Qurana şəkk edirlərsə, "qoy ona bənzər bir surə gətirsinlər", deyə meydan oxuyur. Hətta bir ayə belə olsa, bunu bacara bilməzlər deyir. Lakin ərəblər Quranın başqa məsdərlərdən götürüldüyünü demədilər. Onlar yalnız Məhəmməd ﷺ peyğəmbəri falçı, dəli, kahin və s. olmaqda ittiham etdilər.

**İkincisi:** Bu şübhəni varid edən kitablarda Quranın ilahi yoxsa bəşəri olması barədə ixtilaflı, ziddiyyətli bir çox fikirlərin mövcudluğu bir daha bu iddiaların batil olduğunu sübut edir.

Bu kitablardan biri də keşiş ata Corc Buşun qələmə aldığı "Muhəmməd İslam dininin və müsəlman imperatorluğunun banisi" adlı kitabıdır. Elə bu kitabın

özündə bir-birinə zidd, təzadlı məlumatlar verilmişdir. Məsələn, o öz kitabında gah Muhəmməd ﷺ peyğəmbərin Quranı “Sercius” adlı keşişdən götürdüyünü qeyd edir, (onun Bahira adlı keşişin özü olduğunu iddia edir),[43] başqa yerdə isə Quranın həm "Əhdi-Ətiq" kitabından, həm də "Əhdi-Cədid" kitabından götürüldüyünü deyir.[44] Başqa yerdə isə bu deyilənlərin hamısı təkzib edilir.[45] Quranın ilahi kitab olduğu, qeyd olunan kitabların isə ilahi kitabdan daha çox ədəbi kitaba oxşadığı vurğulanır. Quranın heyrətamiz üslubunun bütün bu kitabların fövqündə olduğu bildirilir.[46]

Sonra isə daha da acizanə şəkildə etiraf edilir ki, bizim əlimizdə Quranın uydurulması haqqında heç bir mötəbər dəlil yoxdur.[47]

Qeyd etdiyimiz məlumatların mənbələrinə qayıtmaqla bir daha şahidi ola bilərsiniz ki, bu şübhəni gətirənlər yalnız İslam haqqında əsassız şübhələri yaymaq qəsdini güdürlər. Belə misalları çoxaltmaq da olar, lakin bununla kifayətlənirik.

---

[43] Ər-Raddu aləl-Qissis Buş fi kitəbihi "Muhəmməd Muəssisu Din əl-İsləmi va Muəssisu İmpraturiyyətil Muslimin", dr.Abdur-Rahmən Ciyra. 2-ci nəşr. Qahirə, 2006.
[44] Ər-Raddu alə Kitəbi Corc Buş "Həyətu Muhəmnəd", Hamid Seyyid Ali, səh 80. Qahirə, 2006.
[45] Eyni mənbə, səh 82.
[46] Eyni mənbə, səh 82.
[47] Eyni mənbə, səh 82.

**Üçüncüsü:** Qurani-Kərimdə əqidə və bütün şəriət məsələlərinin qədim dini kitablardan fərqli olması bu iftiranı darmadağın edir;
Hər kim Qurani-Kərimi sonra Bibliya və Tövratı oxuyarsa, bu kitablar arasındakı böyük fərqi hiss edəcəkdir. Necə ola bilər ki, peyğəmbər Qurana zidd olan bu kitablardan Quranın özünü nəql etsin, sonra da bu kitabların təhrif olunduğunu və bu kitablara batillərin daxil edildiyini iddia etsin?! Bu çox qəribə bir şeydir! Şəkk yoxdur ki, Bibliya və Tövrat və s. kitablar təhrif olmazdan öncə ilahi kitab hesab olunurdular. Qurani-Kərim isə son ilahi kitabdır. İnsanlar kitabları təhrif etdikləri üçün Quran nazil oldu və Allah bu dəfə son kitabı insanların təhrifindən qoruyacağını bildirdi. Həmin kitabların insanlar tərəfindən təhrif olunmasını Allah Quranda xəbər verərək buyurur: "Siz yəhudilərin sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər". (əl-Bəqərə, 75).

Etiqad olaraq Quran tövhidə, təkAllahlılığa dəvət edir. Lakin bu kitablarda Allahın bir deyil üç olduğu, Allahın oğlunun olduğu, İsanın Allahın oğlu olduğu bildirilmiş, peyğəmbərlərin çirkin əməllər etmələri geniş şəkildə qeyd olunmuş, Allahın özünə belə peşmanlıq, yorğunluq nisbət olunmuş, Allah Şəninə layiq olmayan şəkildə vəsf olunmuşdur.

İbadətlərə gəldikdə isə müsəlmanların namazı ilə bu dinlərin ibadəti tam fərqlidir. Eləcə də oruc, zəkat və

həcc tam başqadır. İnsanlar arasındakı münasibətlər haqda hökmlər də olduqca fərqlidir. Məsələn; İslamda rüşvət və aldatmaq haram olduğu halda, yəhudilikdə yəhudi olmayan birini aldatmaq və rüşvət vermək problem və günah sayılmır. İslam isə hər bir qeyri müsəlmanla adil olmağı əmr edir. Yəhudilərə görə isə yəhudi olmayanlar hamısı yəhudi xalqının qulu və köləsidir. Bu misalları da çoxaltmaq mümkündür.

**Dördüncüsü:** Qərbli alim, şərqşünas, filosof, mütəfəkkir, yazar və s. şəxslərin Quranın digər qədim kitablardan tam fərqli olması barədə şahidlik etmələri;
Burada mühüm bir amil, başqa əqidədə olan bir insanın özünə müxalif olan bir əqidənin doğruluğuna şahidlik etməsidir ki, bu da o əqidənin doğruluğuna dəlalət edir. Baxmayaraq ki, bundan daha qüvvətli dəlillər də bu əqidənin doğruluğuna dəlalət edir. Qərbin fikir adamlarından Quranın bəşər kəlamı olmamasına, bəşər kəlamının fövqündə olan ilahi kəlam olmasına şahidlik edənlər çoxdur. Onlardan bəzilərinin sözlərini qeyd edək:

Professor Smith demişdir: "Qurani-Kərim Allahın Muhəmməd peyğəmbərə nazil etdiyi bir kitabıdır. O, möcüzələrdən bir möcüzədir. O həqiqətən də möcüzədir".

Prof. Tagetat Tageson[48] o zaman ki: Quranın bu ayəsini eşidir: "Şübhəsiz ki, ayələrimizi inkar edənləri odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir". (ən-Nisa, 56) O, bundan sonra üç il Quran üzərində araşdırmalar aparır. Sonra isə Səudiyyə Ərəbistanında keçirilmiş Tibbi Konfransda belə bir elan verir: Mən son üç ildə Quranda araşdırmalar aparıram. Artıq mən Quranda gələn hər bir şeyə inanıram. Həqiqətən də Quran haqdır və onu müasir vasitələrlə izləmək asandır. Muhəmməd Allahın elçisi olsa da, oxuyub-yazmağı bacarmırdı. Yəni belə halda o başqa kitabları necə oxuya bilərdi? Artıq (İslamı qəbul etməyimin) vaxtı gəlib çatdı: Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Şəhadət edirəm ki, Muhəmməd Onun elçisidir.

F.Montague[49] demişdir: "Mən Muhəmmədin peyğəmbər olmasında şəkk etmirəm. Hesab edirəm ki, o sonuncu peyğəmbərdir və o bütün insanlığa göndərilmişdir. Onun peyğəmbərliyi tövrat və incili tamamlamaq üçün olan vəhydir. Buna ən yaxşı dəlil isə möcüzə olan Qurandır. Mən İslama və müsəlmanlara qarşı kin bəsləyən avropalı alim Paskalın bütün

---

[48] O, Tailandın Shaung "Mai" universitetinin embriologiya üzrə mütəxəssisi çalışmışdır.

[49] Məşhur Fransız araşdırmaçı, şərq aləminə çoxlu səfərlər etmiş, İslamı araşdırmış şəxs. Uzun araşdırmalardan sonra o 1977-ci ildə İslam dinini qəbul etmişdir.

xatirələrini rədd edirəm. Yalnız (həqiqəti dediyi) bu xatirədən başqa. O deyirdi: Quranın müəllifi Muhəmməd deyil. Necə ki, İncilin müəllifi Matta deyil[50]".

Fransız şərqşünas Barthelemy Saint Hilaire[51] demişdir: "O zaman ki, Allah Quranda peyğəmbərinə onu qoruyacağını bu ayə ilə[52] vəd edir: «Allah səni insanlardan qoruyacaqdır". (əl-Maidə, 67) Peyğəmbər cangüdənlərini tərk edir. Bir insan özü-özünə yalan danışa bilməz.[53] Əgər Quranın səmadan qeyri bir mənbəsi olsaydı, Muhəmməd ﷺ (bu təhlükəni bildiyi halda) cangüdənləri tərk etməzdi"[54].

Philippe Greiner [55] demişdir: "Mən Quranın bütün təbiət və tibb elmilə əlaqəli ayələrinə fikir verdim, şahidi oldum ki, bu ayələr bizim müasir biliklərimizə tamamilə

---

[50] Arafat Kamil əl-İşşi, Ricəl və Nisə əsləmu. 4/413. ("İslamı qəbul edən kişi və qadınlar" kitabı, müəllif: Arafat Kamil əl-İşşi).

[51] O, 1805-ci ildə dünyaya gəlmişdir. Doxsan ilə yaxın ömür sürmüşdür. Aristotelin kitablarını fransız dilinə tərcümə etmişdir. 1865-ci ildə isə Qurani-Kərimi fransız dilinə tərcümə etmişdir. O, ədalətli şərqşünaslardan hesab olunur.

[52] Bundan öncə Muhəmməd peyğəmbərin xüsusi cangüdənləri var idi. Bu ayə ilə o cangüdənləri tərk edir və Allahın onu qoruyacağına arxalanır.

[53] O düşmənlərinin çoxluğunu və təhlükəsini bildiyi halda belə bir qərarı özbaşına verə bilməzdi. Allah onu qoruyacağını həqiqətən də vəd etmişdi.

[54] Barthelemy Saint Hilaire, Muhəmməd və Quran kitabı.

[55] (1865-1944) Fransalı həkim, fransa milli məclisinin üzvü olmuşdur. O, sonradan İslamı qəbul etmişdi.

uyğundur. Mən İslamı qəbul etdim. Çünki yəqin oldum ki, Muhəmməd ﷺ açıq-aydın haqq ilə gəlmişdir"[56].

Sovet hökumətinin yaranmasından 1951-ci ilə kimi Rusiyanın ərəbşünaslıq və şərqşünaslıq sahəsinə töhvələrini vermiş rus alimi Kraçkovski [57] demişdir: «Həqiqətən, Quranda gələn hər şeyi bu dünyada heç bir insan nə yaza bilər, nə də onun mislini gətirə bilər"[58].

İtalian şərqşünas Karl Alfonso Nallino[59] demişdir: «İslam peyğəmbəri Muhəmməd oxumaq və yazmağı bilmirdi. Ona Allah tərəfindən, səmadan vəhy gəlirdi. Bu Quran çox təəccüblü idi. Heç bir şəkk yoxdur ki, heç kim onun mislində bir kitab gətirə bilməz»[60].

Belə misallar çox olsa da bu qədərilə kifayətlənirik. Allah bizi eşidib faydalananlardan etsin!

---

[56] Şövqi Əbu Xalil, "əl-İsləm fi Qafəsil-İttihəm", səh 16. Həmçinin, Abdul-Mu'ti Dilələti, Rabihtu Muhəmmədən va Ləm Əxsər əl-Məsih, səh 62.
[57] Kraçkovski İqnati Yulianoviç (1883-1951); Rus ərəbşünası, sovet ərəbşünaslıq məktəbinin yaradıcılarından biri, akademik.
[58] əl-İsləm və Rasuluhu fi Fikri həuləi, səh 147. Əhməd Hamid.
[59] Karl Alfonso Nallino, (1872-1938): O, İtaliya şərqşünaslıq elminin öndəri hesab olunur.
[60] Qalu an Rasulilləh, səh 120; Əhməd ibn Muhəmməd Atıf.

*Son olaraq; Peyğəmbərimiz Muhəmmədə, Onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!*

وصلى اللهم على نبينا محمد وعلى آله وصحبه أجمعين!

# İstifadə edilmiş ədəbiyyat:


- Bəyən əl-İsləm lir-Raddi aləş-Şubuhəti həvləl-İsləm. (Məcmuatun minəl-Bəhisin)
- Tənzihul-Quranil-Kərim an Dəaval-Mubtilin, Dr.Munqiz əs-Səqqar.
- Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi.
- Səhih əl-Buxari, Muhəmməd ibn İsmayıl əl-Buxari.
- Səhih əl-Muslim, Müslim ibn Həccəc ən-Niysaburi.
- Əş-Şifə bitərifi Hüquq əl-Mustafə, Əl-Qadi İyad.
- Siratun-Nəbəviyyə, ibn Kəsir.
- əs-Siratun-Nəbəviyyə, Abdul-Məlik ibn Hişam.
- əl-Beyhəqi, «Dələilun-Nubuvvə» əsəri.
- Təfsirul Quranil Azim, İbn Kəsir.
- əl-Cəmiu Li-Əhkəmil-Quran. Əbu Abdullah Muhəmməd ibn Əhməd əl-Ənsari əl-Qurtubi.
- əl-Vaciz fi Təfsiri Kitəbil-Aziz. Əli əl-Vahidi.
- Siratun-Nəbəviyyə, İbn Kəsir.
- Hakimin «əl-Mustədrak» əsəri.
- Məcmu'ul-Fətə'va. İbn Teymiyyənin fətvaları.
- ər-Rasul - Məhəmmədin həyatı, Ronald Boodly.
- Ər-Raddu aləl-Qissis Buş fi kitəbihi «Muhəmməd Muəssisu Din əl-İsləmi va Muəssisu İmpraturiyyətil Muslimin», dr.Abdur-Rahmən Ciyra.
- Ər-Raddu alə Kitəbi Corc Buş «Həyətu Muhəmnəd», Hamid Seyyid Ali.

- Qalu an Rasulilləh, Əhməd ibn Muhəmməd Atıf. (Peyğəmbər haqqında deyilənlər - kitabı).
- «əl-İsləm fi Qafəsil-İttihəm», Şövq Əbui Xalil.
- Rabihtu Muhəmmədən va Ləm Əxsərul-Məsih, Abdul-Mu'ti Dilələti.

# Kitabın içindəkilər:

Giriş……………………………………………..2-5
Birincisi: Peyğəmbərin yazıb oxumağı bilməməsi……………………………………………6
İkincisi: Peyğəmbərin Quranda Allah tərəfindən qınanması……………………………….……12
Üçüncüsü: Bəzi hadisələrlə əlaqədar ayələrin Quranın Allah kəlamı olmasına dəlalət etməsi…………………………………………16
Dördüncüsü: Qurani-Kərimin möcüzəvi xüsusiyyətləri……………………….………...21
Beşincisi: Quranın qeyb aləmindən xəbər verməsi…………………………………………..33
Beşincisi: Qədim dini kitablarda (Bibliya, Tövrat və s) olan bəzi məlumatlar Quranda niyə təsdiqlənir?……………………………………...39
Kitabın içindəkilər…………………………..…….50
Qeydlər………………………………………….51

## Qeydlər:

……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………
……………………………………………………………………

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz.
Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** "Quranı Muhəmməd yazıb" deyənlərə cavab.
**Kitabın yazılma tarixi:** 2019.03.20.
**Redaktədən sonrakı tarix:** 2023.08.01.
**Kitabın səhifələrinin sayı:** 53.
**Kağız ölçüsü:** A5 (14.8 cm × 21.0 cm).
**Müəllif:** Sahib Fəriman oğlu Əsədov.
**Redaktor:** Rəşad Əsədli.